# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951; 2024, № 3, maddə 314 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 275 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 14.3.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 14.3.3–14.3.6-cı yarımbəndlər əlavə edilsin:

"14.3.3. malların buraxılışı həyata keçirildikdən sonra 3 (üç) il müddətində bəyannaməçi malları müvafiq gömrük proseduru altında yerləşdirməsi ilə əlaqədar öhdəliklərini yerinə yetirməli olduqda;

14.3.4. Gömrük Məcəlləsinin 46-cı fəslinə uyğun olaraq gömrük borcu üzrə ödənilmiş gömrük ödənişlərinin qaytarılması barədə gömrük orqanının qərarı olduqda;

14.3.5. bu Qaydaların 14.10-cu bəndində göstərilmiş hal istisna olmaqla, aparılmış gömrük auditi nəticəsində gömrük bəyannaməsində qeyd olunan məlumatlarda düzəliş edilməli olduqda;

14.3.6. yuxarı gömrük orqanının və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda.”.

2. 14.4-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Gömrük bəyannaməsində düzəliş edilməsi bu Qaydaların 11 nömrəli əlavəsində göstərilmiş formaya uyğun olaraq həyata keçirilir.”.

3. 14.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

“14.10. Gömrük auditi nəticəsində malların düzgün gömrük proseduru altında yerləşdirilməməsi müəyyən edildikdə gömrük bəyannaməsi malların buraxılışından sonra ləğv edilir.”.

4. 1-9 nömrəli əlavələrin 26-cı qrafasının adında “ölkəyə daxil olan” sözləri “ölkə daxilində” sözləri ilə əvəz edilsin.

5. 2 nömrəli əlavənin “Qeyd” hissəsindən “18-ci”, “25-ci”, “26-cı” və “27-ci” sözləri çıxarılsın.

6. 11 nömrəli əlavə əlavə edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 22 iyul 2024-cü il

№ 350

"Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"na 11 nömrəli əlavə

| Düzəlişin təsnifatı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|

# Gömrük bəyannaməsinə düzəliş vərəqi

Gömrük bəyannaməsinə düzəliş vərəqi

A. Göndərən gömrük orqanı

1. Bəyannamənin tipi

2. Göndərən / İxracatçı №

Qeydiyyat №-si Qeydiyyat tarixi

3. Formalar

4. Yükləmə spesifikasiyası

5. Malların adları

6. Qablaşdırmanın (taranın) sayı

7. Sorğu nömrəsi

8. Malı qəbul edən / İdxalatçı №

Qeydiyyat №-si Qeydiyyat tarixi

9. Maliyyə tənzimlənməsinə məsul şəxs №

№

10. Daxil olduğu 1-ci təyinat ölkəsi

11. Ticarət edən ölkə

12. Ümumi gömrük dəyəri

13. S.İ.O.

14. Bəyannaməçi / Təmsilçi №

Qeydiyyat №-si Qeydiyyat tarixi

15. Göndərən ölkə

15a. Göndərən ölkənin kodu a b

17a. Təyinat ölkəsinin kodu a b

16. Mənşə ölkəsi

17. Təyinat ölkəsi

18. Göndərən ölkədən çıxan nəqliyyat vasitəsinin eyniləşdirilməsi

19. Konteyner

20. Çatdırılma şərtləri

21. Sərhəddən keçən nəqliyyat vasitəsinin eyniləşdirilməsi

22. Valyuta və malların ümumi invoys dəyəri

23. Valyuta məzənnəsi

24. Sövdələşmənin xüsusiyyəti

25. Sərhəddə nəqliyyatın növü

26. Ölkəyə daxil olan nəqliyyatın növü

27. Yükləmə / boşaltma yerləri

28. Maliyyə və bank məlumatları

29. Sərhəd gömrük orqanı

30. Malların yerləşdiyi yer

31. Malların təsviri

Eyniləşdirmə vasitələri və nömrələr, konteynerlərin nömrəsi, malların miqdarı və növü

32. Mal №

33. Malın kodu

34. Mənşə ölkəsinin kodu a b

35. Brutto çəkisi (kq)

36. İmtiyazlar

37. Əməliyyat

38. Netto çəkisi (kq)

39. Kvota

40. Əvvəlki bəyannamə və sənədin xülasəsi

44. Təqdim olunan sənədlər

41. XİFMN-dəki ölçü

42. İnvoys dəyəri

43. Gömrük dəyərinin müəyyən edilməsi üsulu

45. Gömrük dəyəri

46. Statistik dəyər

49. Saxlanc yerlərin eyniləşdirilməsi

47. Gömrük ödənişlərinin hesablanması

| Növ | Hesablama bazası | Tarif dərəcəsi | Məbləğ | ÖÜ |
|---|---|---|---|---|
| | | | | |
| | | Cəmi | | |

48. Ödənişlərə möhlət müddəti

B. Hesablamanın detalları

50. Vəkalət verən № İmza:

Təqdim olunmuş yer və tarix

C. Göndərən gömrük orqanı

51. Göndərən gömrük orqanı

52. Təminat üsulu Kod

53. Təyinat gömrük orqanı və təyinat ölkəsi

D. Gömrük nəzarəti

Nəticə

Tətbiq olunmuş gömrük təminatı və onların nömrələri

Uyğunluq

Tarix

İmza

Möhür

54. Tarix, bəyannaməçinin / təmsilcinin imzası, adı və möhürü